AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank
BİRİNCİ BANK

# Respublika Fənn Olimpiadaları

Rayon (Şəhər) mərhələsi

# Coğrafiya

Ad ______________________

Soyad ______________________

Məktəb ______________________

1. İmtahan müddəti 90 dəqiqədir.
2. 4 səhv cavab 1 düz cavabı aparır.
3. Hər sual 4 bal ilə qiymətləndirilir.
4. Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
5. Rayon (Şəhər) mərhələsinin nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

# 10-cu sinif

04.02.2018

**1. A məntəqəsində (0° şm.e., 65° ş.u.) yanvarın 10-u, yerli vaxtla saat 5.14 dəq, B məntəqəsində yanvarın 9-u yerli vaxtla saat 21.30 dəq. B məntəqəsinin Şimal yarımkürəsində yerləşdiyini, yay gündönümü günü bura günorta günəş şüalarının 60° bucaq altında düşdüyünü nəzərə alaraq, onun yerləşdiyi saat qurşağını və coğrafi koordinatını təyin edin.**

A) XIII; 53,5°şm.e., 87° q.u.
B) III; 53,5° c.e., 51° ş.u.
C) XI; 3° şm.e., 15° q.u.
D) XXI; 53,5° şm.e, 51° q.u.
E) IX; 53,5° şm.e., 36° ş.u.

**2. Aşağıdakıdakı hadisələrin aid olduğu eon və eraları müəyyən edin:**

I – Pangeyanın Qondvana və Lavrasiyaya bölünməsi, qıjıkimilər və okeanda ilk balıqların əmələ gəlməsi
II - Müasir materiklərin yaranması, nəhəng sürünənlərin yayılması

| Eon | Era |
|---|---|
| 1. Fanerozoy<br>2. Kriptozoy | a. Paleozoy<br>b. Kaynozoy<br>c. Mezozoy<br>d. Arxey<br>e. Proterozoy |

A) I – 2 – e; II – 2 - d
B) I – 1 – c; II – 2 - b
C) I - 1 – a; II – 1 – c
D) I – 2 – d; II - 1 - a
E) I – 1 – c; II – 1 - a

**3. Litosfer tavalarının hərəkət istiqamətini nəzərə alaraq, sahəsi böyüyən okeanları və bunun hansı hadisə nəticəsində baş verdiyini müəyyən edin:**



A) Sakit və Şimal Buzlu, konvergent
B) Atlantik və Hind, divergent
C) Atlantik və Sakit, subdiksiya
D) Hind və Sakit, divergent
E) Şimal Buzlu və Sakit, subdiksiya

**4. Azərbaycanın xəritəsində verilən rəqəmlərlə göstərilən ərazilər üçün səciyyəvi olan relyef formalarını müəyyən edin.**
A – allüvial-prollüvial düzənliklər
B – arid-denudasiya relyef formaları




A) A - 5, B - 6
B) A - 1, B - 4
C) A - 6, B - 2
D) A - 2, B - 5
E) A - 2, B – 3

**5. Verilən iqlim diaqramının hansı ərazilər üçün səciyyəvi olduğunu müəyyən edin:**




A) Qaraqum və Qızılqum səhraları
B) Liviya səhrası, Ərəbistan yarımadası
C) Aralıq dənizi sahilləri, Böyük Səhra
D) Kalaxari, Böyük Qumlu səhra
E) Antil adaları, İran körfəzi

**6. Xəritədə ayrılmış region üçün səciyyəvi olan əlamətləri müəyyən edin.**



| |
|---|
| 1. Materikin intensiv məskunlaşmış ərazisidir |
| 2. Burada dünyanın iri meqapolislərindən biri yerləşir |
| 3. Urbanizasiya səviyyəsi 20-40% arasındadır |
| 4. Urbanizasiya səviyyəsi 80% -dən yuxarıdır |
| 5. Əhalinin maksimal sıxlığı səciyyəvidir |
| 6. Metallurgiya müəssisələri təmərküzləşir |
| 7. Dünyanın ən böyük ağac ixracı mərkəzlərindən biridir |

A) 1, 4, 5, 6
B) 2, 3, 5, 7
C) 1, 3, 6, 7
D) 1, 3, 4, 5
E) 2, 4, 5, 6

**7. Azərbaycanın hansı fiziki-coğrafi rayonlarında uyğun olaraq Kür, Araz və Həkəri çaylarının mənsəbi yerləşir.**

A) Küdrü Şirvan, Kür-Araz, Arazboyu
B) Arazboyu, Kür-Araz, Yuxarı Qarabağ
C) Kür-Araz, Arazboyu, Vulkanik yayla
D) Kür-Araz, Kür-Araz, Arazboyu
E) Qazax-Qarabağ, Arazboyu, Kür-Araz

**8. Uyğunluğu müəyyən edin:**

| Məhsullar | Becərildiyi ərazilər |
|---|---|
| 1. Kauçuk | a. Cənub-Şərqi Asiya |
| 2. Kakao | b. Mərkəzi Asiya |
| 3. Pambıq | c. Qərbi Afrika |
| 4. Kartof | d. Ərəbistan |
| | e. Şərqi Avropa |

A) 1-b, 2-d, 3-c, 4-e.
B) 1-a, 2-b, 3-c, 4-d.
C) 1-a, 2-c, 3-b, 4-e.
D) 1-c, 2-b, 3-a, 4-e.
E) 1-e, 2-d, 3-c, 4-a.

**9. Uyğun olaraq südlük və ətlik heyvandarlığın üstünlük təşkil etdiyi regionları müəyyən edin.**




A) 3, 2 B) 2, 4 C) 1, 4
D) 3, 5 E) 1, 5

**10. Avanqard üçlüyə daxil olan sahələri və bunun səbəbini müəyyən edin.**

A) Maşınqayırma, energetika, kimya sənayesi,
Bu sahələr ölkənin inkişaf səviyyəsini və ETİ-nin nailiyyətlərini müəyyən edir.
B) Kimya və meşə sənayesi, atom energetikası
Sənayenin yüksək elmtutumlu sahələridir
C) Alternativ energetika sahələri olan Geotermal, HelioES, Külək ES
Onlar ekoloji cəhətdən təmiz sahələrdir
D) Aviakosmik, elektrotexnika, cihazqayırma sahələri
Yüksək elmtutumlu sahələrdir
E) Üzvi sintez kimyası, polimerlər kimyası və neft-kimya sahələri
Bu sahələr yeni süni materiallar və yanacaq istehsal edir

**11. Hansı məntəqələrdə uyğun olaraq həyata keçirilir**

1 – ağac tədarükü və ixracı
2 - ağac idxalı




A) 1-a, 2-b B) 1-c, 2-b C) 1-d, 2-e
D) 1-c, 2-d E) 1-e, 2-c

**12. Adalar və yarımadalarda yerləşən ölkələrə aid uyğunluğu müəyyən edin.**

| Adalar | Yarımadalar | Ölkələr |
|---|---|---|
| I. Krit | 1. Yutlandiya | a. Malayziya |
| II. Kalimantan | 2. Skandinaviya | b. Norveç |
| III. Şpitsbergen | 3. Pireney | c. Yunanıstan |
| IV. Balear | 4. Malakka | d. İspaniya |
| V. Zelandiya | 5. Balkan | e. Danimarka |

A) I – 2 - a; II – 3 - b; III – 1 - d; IV – 5 – d; V – 4 - b
B) I – 4 - a; II – 1 - b; III – 5 - c; IV – 2 – d; V – 3 - b
C) I – 5 - c; II – 4 - a; III – 2 – b; IV – 3 – d; V – 1 - e
D) I – 4 - e; II – 5 - c; III – 3 - a; IV – 1 – d; V – 2 - b
E) I – 1 - b; II – 2 - e; III – 4 - c; IV – 3 – d; V – 5 – b

**13. Asiyanın regionları və burada axan çaylara aid xüsusiyyətləri müəyyən edin:**

- yazda çaylarda suyun səviyyəsi kəskin şəkildə yüksəlir
- çaylar yağış və qar suları ilə qidalanır
- çayların vadilərində əhalinin sıxlığı aşağıdır

| | |
|---|---|
| 1. Mərkəzi Asiya<br>2. Şimali Asiya<br>3. Cənub-Qərbi Asiya | a. Volqa<br>b. Yenisey<br>c. Dəclə<br>d. Lena<br>e. Mekonq |

A) 1 - a, d
B) 2 - c, e
C) 2 – b, d
D) 3 - c, d
E) 1 - a, b

**14. Düzgün olan uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. Drenaj | a. Sular birinci suyadavamlı lay üzərində yerləşən sulardır |
| 2. Artezian suları | b. Təzyiq altında olan layarası sulardır |
| 3. Qrunt suları | c. Yeraltı suların səviyyəsini aşağı salmaq üçün hidrotexniki qurğulardır |
| | d. İki suyadavamlı lay arasında olan sulardır |
| | e. Əkin sahələrini suvarmaq üçün istifadə edilən hidrotexniki qurğulardır |

A) 1-a, e; 2-b; 3-d;
B) 1-a; 2-b; 3-c, d;
C) 1-b, d; 2-e; 3-a;
D) 1-c; 2-d; 3- a, e;
E) 1-c; 2-b; d, 3-a;

**15. Çoxillik ritmik proseslərə aiddir:**

A) Transqressiya və reqressiya, çaylarda gursululuq və mejen
B) Mussonlar, qütb gecə-gündüzləri, qabarma və çəkilmələr
C) Buzlaşma, qlobal istiləşmə, dağəmələgəlmə, platformaların yaranması
D) Brizlər, gecə-gündüzün növbələşməsi, çayların buz bağlaması
E) Yarpaqların tökülməsi, litosfer tavalarının hərəkəti, fəsillərin dəyişməsi, passatlar

**16. Uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| I. Zonal təbii komponentlər<br>II. Azonal təbii komponentlər | 1. Qranit<br>2. Qaratorpaq<br>3. Arktik hava kütlələri<br>4. Fudziyama vulkanı<br>5. Qeyzerlər<br>6. Tundra bitkiləri |

A) I - 2, 3, 4; II - 1, 5, 6
B) I - 1, 2, 3; II - 4, 5, 6
C) I - 1, 3, 5; II - 2, 4, 6
D) I - 2, 3, 6; II - 1, 4, 5
E) I - 1, 5, 6; II - 2, 3, 4

**17. Kənd təsərrüfatı məhsullarının becərildiyi ərazilərin uyğunluğunu müəyyən edin:**

| Məhsullar | İqtisadi rayon | İnzibati rayon |
|---|---|---|
| I. pambıq<br>II. üzüm<br>III. çay<br>IV. kartof | 1. Gəncə-Qazax<br>2. Lənkəran-Astara<br>3. Naxçıvan<br>4. Dağlıq Şirvan<br>5. Aran | a. Şərur<br>b. Tovuz<br>c. Saatlı<br>d. Masallı<br>e. Qobustan |

A) I – 5 - c; II – 4 - e; III – 2 – d; IV – 1 - b
B) I – 2 - a; II – 3 - b; III – 1 – c; IV – 4 - d
C) I – 4 - d; II – 5 - a; III – 3 – b; IV – 2 - c
D) I – 3 - e; II – 1 - d; III – 5 – a; IV – 4 - b
E) I – 1 - b; II – 2 - c; III – 4 – e; IV – 3 - a

**18. Əhalinin təbii artımı aşağı olan ölkələrdə olan problem və onun həllinin yollarından biri:**

A) Əhalinin yüksək sıxlığı, yeni ərazilərin mənimsənilməsi
B) Əhalinin kütləvi savadsızlığı, icbari ibtidai təhsil
C) Yüksək uşaq ölümü, tibbi xidmətlərin yaxşılaşması
D) Aşağı doğum səviyyəsi, azuşaqlı ailələrin üstünlüyünün təbliği
E) Əmək ehtiyatlarının çatışmaması, ölkəyə immiqrasiya prosesinin sadələşməsi

**19. Temperaturu 30ºC, nisbi rütubətliyi 80% olan 1 $m^3$ hava 20ºC-yə qədər, temperaturu 10ºC, nisbi rütubətliyi 70% olan 1 $m^3$ hava 0ºC-yə qədər soyudularsa, hər iki halda ayrılan su buxarının cəmini qramlarla hesablayın.**

A) 8,3 B) 4,4 C) 4,0 D) 3,6 E) 17

**20. Ekoloji sistemin tarazlıq vəziyyəti və ekoloji mühitin mövcud normalara uyğunluğunun yoxlanılması müvafiq olaraq adlanır:**
A) Ekoloji norma, ekoloji audit
B) Ekoloji balans, ekoloji fəlakət
C) Ekoloji nəticə, təbii kompleks
D) Təbii kompleks, təbii landşaft
E) Təbii zona, ekoloji əsas

**Mətnə əsasən aşağıdakı suallara cavab verin:**

Favel – portuqal sözü olub "yoxsullar məhəlləsi" deməkdir. Favel – iri şəhərlərin ətrafında çox vaxt kəndlərdən köçüb gələn yoxsul insanların yaşadığı məhəllələrdir. Onlar Braziliyada əksər iri şəhərlərin ətrafında vardır, San-Paulu şəhərinin ətrafında daha çox sayda yaranmışdır. Favellər şəhəri əhatə edən, dağların sürüşmə təhlükəsi olan yamaclarında yerləşir. Burada kəndlərdən miqrasiya edən imkansız və kasıb əhali tərəfindən qanunsuz olaraq tikilmiş evlər üstünlük təşkil edir.

Favellər yalançı urbanizasiya ilə əlaqədar genişlənir. Favellərdə həyat şəraiti şəhər standartlarına uyğun deyildir, onlarda şəhər planlaşması yoxdur, infrastruktur şəbəkəsi qurulmur, gigiyena qaydalarına əməl olunmur, işsizlik və cinayətkarlıq yüksək səviyyədədir.

**21. Braziliyada yoxsul məhəllələrinin "favel" adlanması səbəbi:**
A) Portuqaliya favellərin sayına görə dünyada birinci yeri tutur
B) Favellərdə əsasən portuqallar yaşayır
C) İlk favellər Portuqaliyada yaranmışdır
D) Ölkədə yaşayan əhalinin dilinə uyğun olaraq adlanır
E) Favellərin əhalisi Portuqaliyadan olan miqrantlardır

**22. Braziliyada favellərin sayına görə ikinci yeri tutan şəhər:**
A) Brazilia
B) Buenos-Ayres
C) Rio-de-Janeyro
D) Belu-Orizontu
E) San-Paulu

**23. Mətndəki materiallardan istifadə edərək favellərdə yaşayışın təhlükəli olmasının *bir təbii, bir sosial amilini* müəyyən edin:**
A) Zəlzələ, tibbi xidmətin olmaması
B) Sürüşmələr və antisanitariya
C) Qasırğalar və işsizlik
D) Daşqınlar, əhalinin təhsil səviyyəsinin aşağı olması
E) Torpaq eroziyası, yamaclarda meşələrin qırılması

**24. Favellərdə əhalinin sayının artmasının əsas səbəbi nədir?**
A) Doğumun aşağı olması
B) Əhalinin şəhərlərin mərkəzindən kənarlara köçməsi
C) Xarici miqrantların böyük axını
D) Təbii artımın aşağı səviyyəsi
E) Kənd əhalisinin şəhərlərə köçməsi

**25. Verilən şəhərlərdən hansında favellərin yaranması ehtimalı böyükdür?**
A) Qahirə, Cakarta, Moskva
B) Berlin, London, Paris
C) Tokio, Mexiko, Sidney
D) Cakarta, Nayrobi, Əddis-Əbəbə
E) Mexiko, Nyu-York, San-Fransisko